AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 143 (1991) 14 sentyabr 2019-cu il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR



# TARİXİN DAŞ YADDAŞI

**Böyük şairimizin bu müdrik kəlamını hər dəfə xatırlayanda, hər dəfə yaddaşımızın süzgəcindən keçirəndə fikrin dəqiqliyi qarşısında bir daha səcdə etməli olursan. Həqiqətən də hər daş, hər yazılı vərəq, hər bir işarə, hər bir naxış və elə hər bir sözün özü zamanında və yerində müraciət edib söykəndiyimiz istinad nöqtəmiz olan tarixdi. Yəni bu dediklərimizin hər biri özü-özlüyündə bir zaman kəsiyini ifadə edir. Nə qədər əks təbliğatlar aparılsa da, nə qədər özününküləşdirməyə cəhdlər olsa da, amma qızılı gizlədə bilməyən toopaq həqiqəti də gizlədə bilmir. Bax, bu mənada indi işğal altında olan torpaqlarımızın tarixi onun Azərbaycan xalqına məxsusluğu bütün faktlarla, maddi və mənəvi sərvətlərlə, gerçəkliklərlə öz təsdiqini tapıbdı.**



Barəsində söhbət açmaq istədiyimiz tarixi abidələrimizin içərisində türbələrin də xüsusi yeri var. Təbii ki, bu türbələrin hər biri həm inamın, həm inancın, həm də memarlığın bir nümunəsidir.

Və onlar mövcud olduğu ərazilərdə insanların inancını göstərməklə yanaşı, həm də tikinti-arxitektura mədəniyyətini də büruzə vermiş olur.

Yəni həmin abidələrə təkcə tarixin özü kimi yox, həm də inşaat əsəri kimi baxanda onda xalqımızın yaradıcılıq potensialı, sənətkarlıq məharəti və nəhayət, memarlın üslubları göz önündə canlanır.

Bu bir həqiqətdir ki, Qarabağ regionu özünün tarixi sərvətləri, yəni yeraltı, yerüstü abidələrilə həmişə diqqət mərkəzində olubdu. İstər Dağlıq Qarabağ ərazisindəki Azıx, Tağlar mağaraları, istərsə də Qarabağın Bərdə, Ağdam, Füzuli Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, eləcə də Şuşa, Əsgiran, Xocalı, Ağdərə, Xocavənd və digər bölgələrindəki abidələrin hər birinin yaşı qədər də tarixi var.

Və bu tarix də Azərbaycan xalqının varlığını mübahisəsiz və mübaliğəsiz gerçəklik kimi ortaya qoyur. Hər kəs də bu tarix qarşısında sayğı ilə dayanmağa borcludur.

Bəli, bu gün işğal altında olan Füzuli rayonu ərazisində xeyli sayda qədim türbələr mövcuddur. Etiraf etmək lazımdır ki, həmin türbələrin bir qismi Füzuli rayonunun işğal olunmuş ərazilərində qaldığından onların taleyi ciddi narahatlıq doğurur. Çünki əsir türbələrin düşmən tərəfindən vandalizmə tuş gəlməsi barəsində kifayət qədər informasiyalar var.

Hətta o da məlumdur ki, torpaqlarımızı işğal etmiş ermənilər yeraltı sərvətlərimizi daşımaqla yanaşı, yerüstü sərvətlərimizi də talamaqla, yandırıb, uçurub dağıtmaqla da məşğuldular.

Bax, bu mənada Füzuli rayonunun işğal olunmuş ərazilərində qalmış abidələrimizin taleyi ciddi narahatlıq doğurur.

Öncə qeyd etdiyim kimi, rayonun ərazisindəki mövcud abidələrinin arasında türbələrin ayrıca bir yeri var.

Və onu da elə buradaca xatırladım ki, Qarabağ coğrafiyasında mövcud olan abidələrin ən qədimləri elə Füzul rayonunun payına düşür. Yəni aparılmış arxeoloji qazıntılar, tarixi araşdırmalar göstərir və sübut edir ki, həqiqətən Füzuli rayonundakı abidələrin yaşı minillikləri keçir. Həmin qədim abidələrdən biri də bu gün işğal altında olan rayonunun Aşağı Aybasanlı kəndi ərazisində yerləşən Qara Şeyx İbrahim türbəsidir. Təkcə yerli sakinlərə deyil, eləcə də arxeoloqlarımıza, tarixçilərimizə aydındır ki, bu abidə Füzuli rayon Aşağı Aybasanlı kənd qəbiristanlığında ucaldılıbdır. Doğrudur, bu türbəyə el arasında, yəni yerli sakinlər öz arasında "İbə İbrahim" türbəsi adlandırmaqla elə bu cür də yaddaşlarda yaşadılır.

Amma araşdırmalar göstərir ki, bu abidənin daş kitabəsində müəyyən bilgilər var.

Həmin daş kitabəni oxuyan alimlərimiz öyrəniblər ki, Şeyx İbrahim türbəsi öz yaşına görə çox qədimdir. Və onun daş kitabəsində yazılıb ki, "Allahın Rəsulu Məhəmmədə salam. 1042... Əvəzəli bin Əlimərdan..."

Alimlər bu daş kitabəni, yəni yarı pozulmuş, silinmiş və əsgi əlifba ilə daşa hopdurulumuş sözləri oxuduqdan sonra bu qərara gəliblər ki, türbəni tikən ustanın adı Əvəzəli, onun tikilmə zamanı isə Hicri tarixi ilə 1042-ci ili göstərir.

Hicri tarixini də Miladi tarixinə çevirəndə 1632-1633-cü illəri yada salmalı oluruq.

Burada bir məqam da var ki, həmin daş kitabə türbənin sol yuxarı küncündə yerləşdirilmiş, üstəlik, sal daşın üzərində bir qadının, özü də ağac kölgəsində dayanmış qadının və atın da rəsmi cızılmışdır. Bütün bunlar onu deməyə əsas verir ki, abidəni yenidən bərpa edən usta özündən əvvəlki sənətkara sayğı ilə yanşaraq onun əl izlərinə toxunmamışdır.

Və hətta həmin daş kitabəni götürüb bərpa olunan türbənin yuxarı sol küncündə əvvəlki yerində yerləşdirmişdir.

Bu da məlumdur ki, türbənin giriş qapısının hər tərəfində yerləşdirilən kitabənin üzərindəki yazılar bu kitabəni digər daşlardan tamam fərqləndirib.

Yəni öncə barəsində danışdığımız və üzərində 1042 yazılmış həmin daş kitabə ilə qapının girişinin ətrafındakı daş kitabələr arasında fərqin olduğu danılmazdır.

**Etnoqraflarımızın, eləcə də digər alimlərimizin fikrinə görə, bu türbə, yəni Şeyx İbrahim türbəsi ötən əsrin əvvəllərində öz bünövrəsi üzərində səkkiz bucaqlı şəklində yenidən tikilib bərpa olunmuşdur. Şeyx İbrahim türbəsindən danışarkən onu da xatırlatmaq lazımdır ki, şeyxin məzarı türbənin mərkəzindədi. Yerdən təqribən 80 sm hündürlükdədir. Bu cür üslubda qəbirlərin yerləşdirilməsi halına Füzuli rayonu ərazisindəki digər türbələrdə də, xüsusilə Horadiz kəndi yaxınlığındakı İmamzadə abidəsində də rast gəlinib. Eyni zamanda alimlərin fikrincə, bu üslubda dəfn mərasimləri rayonun Babı kəndindəki Şeyx Babı türbəsində, Aşağı Veysəlli kəndindəki Mir Əli və Əhmədalılar türbələrində də rast gəlinib. Ümumiyyətlə, xatırlatmaq yerinə düşər ki, bu gün Füzuli rayon ərazisindəki türbələrin hər birinin daş kitabələrində tarixi gerçəklikləri ifadə edən yazılara rast gəlmək mümkündür.**

**(ardı gələn sayımızda)**

**Əbülfət MƏDƏTOĞLU**